# “Azərbaycan Respublikasının Ağdam və Şuşa rayonları ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 fevral tarixli Fərmanının təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ MİLLİ ŞURASININ QƏRARI

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası qərara alır:

Azərbaycan Respublikası Konstitusiyasının 104-cü maddəsinin 40-cı bəndinə müvafiq olaraq, «Azərbaycan Respublikasının Ağdam və Şuşa rayonları ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 fevral tarixli Fərmanı təsdiq edilsin.

**Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini**

**Z. SƏMƏDZADƏ.**

**Bakı şəhəri, 19 fevral 1992-ci il.**

**№ 74.**

## Birləşmiş Millətlər Təşkilatının Baş katibi

## cənab Butros Qaliyə

Dörd ildən artıqdır ki, Azərbaycan dövlətinin ərazi bütövlüyü nə və suverenliyinə Ermənistan dövləti tərəfindən cinayətkarcasına qəsd edilir. İki xalq arasında dostluq, beynəlmiləlçilik kimi əsas dəyərlər alt-üst olur, erməni ekstremistləri tərəfindən qanunçuluq, sosial ədalət və insan hüquqları kobudcasına pozulur.

1988—1991-ci illərdə Ermənistandan 200 mindən çox azərbaycanlı əhalinin zorakılıqla köçürülməsi, bu zaman müdafiəsiz qalan adamların qətlə yetirilməsi ilə kifayətlənməyərək Ermənistan Respublikası və onun ümumdünya havadarları Azərbaycan Respublikası ərazisinin bir hissəsini—Dağlıq Qarabağı qopartmaq məqsədi ilə ona qarşı təcavüzü gündən-günə gücləndirirlər. Bu hadisələrdə bilavasitə iştirak edən Ermənistanın dövlət orqanları insan hüquqlarına dair beynəlxalq aktları və BMT-nin müvafiq sənədlərini kobudcasına pozurlar.

BMT-nin Təhlükəsizlik Şurasına Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının əvvəllər qəbul etdiyi və sonuncu—1992-ci il 13 yanvar tarixli Müraciətində Azərbaycan dövləti milli humanist ənənələrə əsaslanıb və əsl demokratik prinsiplərə sadiq qalaraq, dəfələrlə olduğu kimi Ermənistan rəhbərliyini terror siyasətindən əl çəkməyə, danışıqlara başlamağa və Dağlıq Qarabağla bağlı bütün problemləri dinc yolla həll etməyə çağırmışdır. Lakin Ermənistan tərəfi buna məhəl qoymayıb Azərbaycanın şəhər və kəndlərinə qarşı geniş miqyaslı hərbi əməliyyatlar keçirilməsini davam etdirməkdədir. İndi də Dağlıq Qarabağda qanunsuz hakimiyyət strukturları yaratmaq və bu ərazini Azərbaycan dövlətinin tabeliyindən çıxarmaq üçün yenidən fitnəkar cəhdlər göstərilir.

Azərbaycan dövləti həmişə dinindən, milli mənsubiyyətindən asılı olmayaraq vətəndaşların hüquqlarına və azadlıqlarına riayət etmiş, regionda sülh və milli həmrəyliyin bərqərar olmasına var qüvvə ilə səy göstərmişdir. Lakin son vaxtlar erməni silahlı dəstələri Qarabağın azərbaycanlılar yaşayan kənd və şəhərlərinə, habelə Ermənistanla sərhəd rayonlara müasir silah və vasitələrdən istifadə etməklə hücumlar edir, arvad, uşaq, qoca və xəstə bilmədən qəddarcasına qətlə yetirir və ya girov götürürlər.

Azərbaycan Respublikası silahlı basqınlara son qoyulması təklifi ilə dəfələrlə Ermənistanın dövlət hakimiyyət orqanlarına və Dağlıq Qarabağda yuva salmış quldur dəstələrinə müraciət etsə də bunun heç bir müsbət nəticəsi olmamışdır.

Azərbaycan Respublikasının Ağdam və Şuşa rayonları ərazisində yaşayan, milliyətindən asılı olmayaraq bütün vətəndaşların təhlükəsizliyini və onların hüquq və azadlıqlarının müdafiəsini təmin etmək məqsədi ilə, onların həyatı üçün erməni silahlı birləşmələrinin misli görünməmiş geniş miqyaslı döyüş əməliyyatları nəticəsində yaranmış real təhlükəni nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 121-4-cü maddəsinin 16-cı bəndinə, «Fövqəladə vəziyyət haqqında» Azərbaycan Respublikası Qanununun 2 və 4-cü maddələrinə əsasən Azərbaycan Respublikası Prezidenti 18 fevral 1992-ci il tarixdə qəbul etdiyi Fərmanla

Azərbaycan Respublikasının Ağdam və Şuşa rayonları ərazisində iki ay müddətinə fövqəladə vəziyyət elan etmişdir.

Fərmana görə, fövqəladə vəziyyət dövründə bu rayonlarda aşağıdakı məhdudiyyətlər müəyyən olunmuşdur: xüsusi gəliş-gediş rejiminin müəyyən edilməsi, habelə müvafiq buraxılış vəsiqəsi olmadan nəqliyyat vasitələrinin bu rayonların ərazisində hərəkət sərbəstliyinin məhdudlaşdırılması; ictimai qaydanın, əhali və xalq təsərrüfatının normal fəaliyyətini təmin edən obyektlərin mühafizəsinin gücləndirilməsi; yığıncaqlar, mitinqlər, küçə yürüşləri, nümayişlər, digər kütləvi tədbirlər keçirilməsinin qadağan edilməsi; qadağan saatı müəyyən edilməsi; vətəndaşların cəmləşdiyi yerlərdə sənədlərin yoxlanması, lazım gəldikdə isə adamların üst-başı, əşyaları və nəqliyyat vasitələrinin yoxlanması; ərzaq məhsullarının və ən zəruri malların bölüşdürülməsinin xüsusi qaydasının tətbiq edilməsi; lazım gəldikdə əmək qabiliyyətli əhalinin fövqəladə vəziyyətin təmin olunması işinə səfərbər edilməsi.

Azərbaycan Respublikası Konstitusiyasının 104-cü maddəsinin 40-cı bəndinə əsasən, «Azərbaycan Respublikasının Ağdam və Şuşa rayonları ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 fevral tarixli Fərmanı 1992-ci il fevralın 19-da Azərbaycan Respublikası Ali Soveti Milli Şurası tərəfindən təsdiq olunmuşdur.

Ağdam və Şuşa rayonları ərazisində fövqəladə vəziyyətin elan edilməsi yalnız və yalnız bir məqsədə—milliyyətindən və dinindən asılı olmayaraq bütün vətəndaşların təhlükəsizliyi, hüquq və azadlıqlarının təmin edilməsinə xidmət edir.

Azərbaycan Respublikası fövqəladə vəziyyət tədbirlərini qanunauyğun və ədalətlə həyata keçirəcəyinə tam təminat verir.

**1992-ci il fevralın 19-da**

**Azərbaycan Respublikası Ali**

**Soveti Milli Şurasında qəbul olunmuşdur.**